**AzXP-nin 03.05.2025-ci il tarixli iclasında**
**Səid Abbasovun**
**"Tərtər qətliamının kökündə duran səbəblər" mövzusunda çıxışı**

Tərtər Soyqırımının kökündə hansı qüvvələr yatır.

"Azərbaycan hüquq müdafiəçilərinin bildirdiyinə görə, Azərbaycan Silahlı Qüvvələrinin 100-dən çox əsgər və zabitinə işgəncə verilmiş, 25 nəfər uzun müddətli həbs cəzası almış və 12 nəfər işgəncədən ölmüşdür. Xüsusilə ehtiyatda olan polkovnik-leytenant Saleh Qafarovun əllərini və ayaqlarını bağlayıb suda batırmış, bədəninə cərəyan vermiş, dırnaqlarını çıxarmış, çənəsini sındırmış və əlləri bağlı şəkildə 2-ci mərtəbədən atmışdılar. Bunu məhkəməyə onun həyat yoldaşı eşitdiklərindən bildirmişdir. Bundan sonra komaya düşənə qədər işgəncə verməyə davam etmişdilər.

Keçmiş bölük komandiri, kapitan rütbəsi olan Vaqif Abdullayevin dediyinə görə o, ac saxlanılmış, çılpaq vəziyyətdə üzərinə soyuq su atılmış, elektroşok ilə işgəncə verilmişdir, sonra isə ordudan qovulmuşdur."

Bəzi mətbuat xidmətlərində gedən informasiyanın qısa özətidir bu.

Nəyə görə qısa, ona görə ki, bütün mətbuatı araşdırdım yalnız qısa məlumatar tapa bildim. Bir sualım yarandı: "Axı, işgəncə görən insanlar qeyd edirlər ki, 100 lərlə əsgər və zabit işgəncə görüb. Nəyə görə?"

Bu qədər qisa. Kim yalan danışır?

Həcdən gələn, yoxsa həcdən xəbər verən?

Xəbər gətirənin gətirdiyi xəbər həmişə doğru olmaya da bilər. Bəs görən bunun arxasında hansı məqsədlər və qüvvələr dayanır ki, bunlar arxayınlıqla yalan məlumatları yayırlar?

Yalan demişkən, bir məsələni də xatırlatmaq yerinə düşər ki, son 300 ildə bizlərə verilən məlumatların bir çoxları yalan üzərində qurulmuş məlumatlardır.

Bu gün daha ciddi bir məlumatı və hətta, sizləri şok edəcək məlumatı sizlərlə bölüşərək, bu fikrin üzərindən, Tərtər soyqırımının köklərinin nə qədər dərində olduğunu sizlərə çatdırmağa çalışacağam.

İlk öncə, bir məsələni qeyd etmək istəyirəm ki, bir çox zərərçəkmişlər bu planın arxasında Moskvanın, daha dəqiq isə, V.Putinin olduğunu qeyd edirlər.

Ancaq, mən bu qədər sadəlövh deyiləm ki, bu fikirləri qəbul edim. Ona görə ki, V.Putinin özünün keçmişində də qaranlıq səhifələr var. Yəni Almaniyaya gedib yüksək tribunadan almanca danışan və üz forması təqribən uçbucaq formasında olan bu insan, nədənsə, dönəndən bir müddət sonra, Almancanı tamamən unudur və üz forması da dəyişilərək, təqribən, yumru formaya düşür.

Görən bu nə sirri xudadır? Görən hansı Putindir ki, öz xalqının, təqribən, 1milyon cavanını Ukraynada qırğın maşınının ağzına verib. Fizionomiyadan bildiyimə görə, üçbucaq üz formasına sahib insanlar müharibəyə meyilli insanlar olmur. Deməli, burada məsələnin kökü daha dərindədir.

Daha dərinə enib araşdırmaq məqsədi ilə enə-enə, Babil şəhərinə gedib çıxdım. Hansı ki Babil şəhərini Quranda bizə guya kafir olduğu öyrədilən Nemrud şah yenidən bərpa etdiriməyə çalışıb.

Görən nədən, nə məqsədlə?

Dindarların dediyinə görə, allahlara qarşı üsyan etməyə görə. Burda bir çox suallar meydana gəlir. Mütləq yaradan təkdir. Hansı allahlarıa qarşı, görəsən, müharibə aparmağa çalışıb?

Bugünkü elim və texnalogiyanın koməkliyi ilə tarixçilərin araşdırmasına əsasən, Nəmrut şah allahlara qarşı yox, başqa planetdən gələn, insanları özlərinə kölə kimi işlətməyə çalışan DEV-lərə qarşı müharibə elan edib.

Bəs, nədən, maraqlıdır, dünyamızı qorumağa çalışan bir şah bizlərə kafir kimi təqdim edilib. Bunun cavabını özünün Nəmrud şahın soyundan olduğunu iddia edən, dövrümüzdə Babil şəhərini yenidən bərpa etdirməyə çalışan Səddam Hüseyn verib. Cavaba keçmədən öncə, Səddam Hüseynin hakimiyyəti dövründə yaşadıqlarını bir daha sizlərə xatırlatmaq istəyirəm.

Əsasən, Babil şəhəri ilə əlaqəli olan hissəsini. Yəni, hakimiyyəti dövründə həmən şəhəri bərpa etmək üçün təqribən 100 milyon dollar civarında maliyyə ayırmasını və min nəfərlik əməkdaşını ora göndərməsi olayını. Bu olaydan narahat olan, özünü müsəlman dövləti kimi təqdim edən İran Qərbin dəstəyi ilə körfəz müharibəsini başladıb.

Əcəba, tarix boyu bir-birini düşmən kimi görən bu dövlətlərin burda hansı maraqları olub ki, belə bir şəraitdə darhal birliyə gələ biliblər. Tutaq ki, dindarların iddasına görə, bu şəhər lənətlənmiş bir şəhərdi, İranın etiraz etməsini normal qəbul etmək olar. Əsas maraqlı məqam isə Qərbin narahat olması burada mənim diqqətimi çəkib.

Bunun da açıqlaması özünü Nəmrud şahın soyundan olduğunu iddia edən Səddam Hüseyin tərəfindən verilib.

Babili dağıdan və yenidən qurulmasını istəməyən bizim inandığımız Allah deyil. İsrailin saxta tanrısıdır.

Sualların içindən suallar çıxır. Tutaq ki, İsrail bunu istəmir, bəs qərbə nə düşüb?

Burda çox ciddi və qarşılıqlı əməkdaşlıqdan söhbət gedir. Tarix boyu planetimizdə yaşayan devlər və elmi mənbələr. Tufan olayından sonra yıxılan mədəniyyətlərin qalıqlarının əsas hissəsi israil arxivlərində və Babil şəhərində daş kitablarda qorunub saxlanıla bilib. Səddam Hüseynin devrilməsindən sonra, yerli şahidlərə əsasən, bu şəhərdən bəzi məlumatlar Qərb tərəfindən daşınıb. Qərb isə öz növbəsində bunu təkzib edib. Bu gün bizlərə dayatılan tarixi və dini məsələlərdə də ziddiyətlərin olması, müsəlmanların haradan və necə gəlmələrini gizlətmək məqsədi ilə bağlıdır.

İsrail demişkən, bu günlərdə ölkəmizə uşaq qatili olan İsrailin baş naziri Benyamin Netanyahu İranın prezidentindən sonra ölkəmizə səfərə gəlib.

Görən nə gətirib: yeni qırğınlar, müharibələr, yoxsa nə? Yaşayarıq görərik.

Mövzunu toparlamaq amacıyla bir ekstra məlumatı sizlərlə bölüşmək istəyirəm.

Devlər insanlarla oyuncaq kimi oynayırdılar və hər şeyi yeyib dağıdırdılar. Yeməyə bir şey tapmayanda insanları yeməyə başladılar. Bundan sonra insanlar bir araya gələrək devlərə qarşı üsyana qalxdılar. Görən, tarixdə Davud peyğəmbər kimi xatırlanan şəxs hansı Devə qarşı müharibəyə başçılıq edib? İsrailin təqdim etdiyi Fələstinli devə qarşı, yoxsa hansı devə?

Çox maraqlıdır, əgər o dövrdə fələstinlilər DEV olublarsa, bu gün niyə onlar mövcud deyil və yaxud, İsrailin iddiasına inansaq, bu gün fələstinlilər mövcud olmamalıdırlar. Bu günkü dünyada baş verənlər isə, istər Tərtər soyqırımı olsun, istər Ukrayna-Rusiya və yaxud Pakistan və Hindisstan problemləri olsun, bunlar günümüzün devlərinin oyunudur ki, insanların əsas etiraz qüvvəsini qırıb özlərinə nökər kimi işlətsinlər və eyni zamanda, beyinlərinə çip taxaraq istədikləri kimi idarə etsinlər.

Yəni bir knopka basılanda yüzlərlə insan səhər qalxıb xoruz kimi banlasın. Tərtər soyqırımı və eyni zamanda, ölkəmizdə son yüz ildə gedən sonsuzlaşdırma və müharibələrin əsas səbəbləri İnsanlığa qarşı müharibələr aparan İsrail və Qərbdir.

Çox maraqlıdır, bizə dində kafir kimi təqdim olunan Nəmrud şahın mübarizə aparmaq istədiyi qüvvlər də, yəni devlər insanlara qarşı olub və onları özlərinə nökər kimi işlətmək planları güdüblər.

İsraili və Qərbi bu qüvvələrlə bağlayan hansı məqamlar var ki, eyni planın ortaq qardaşları kimi özlərini aparırlar?

Bunu qədim insanların sözüylə cavablandırmaq istəyirəm. Özlərini “allah yaradan” kimi dünyaya sırımaq istəyi olub. Eyni zamanda, başqa planetlərdən gələnlər də burda özlərini Allah kimi apardıqlarına görə dünyamızda öldürülüb və qovulublar.

Yəqin ki, tarixçilər bu məqamlara da gec-tez daha geniş aydınlıq gətirəcəklər.

Bir qədər mücərrəd xarakterli bu çıxışımı səbrlə  dinlədiyinizə, dözüm və səbr göstərdiyinizə görə, hamınıza təşəkkür edirəm, hörmətli millət vəkilləri.